**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№** 7 "16" yanvar **2023-cü il**

**Binəqədi rayonunda 20 Yanvar faciəsinin otuz üçüncü ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında**

20 Yanvar faciəsinin otuz üçüncü ildönümünün qeyd edilməsi və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

**1.** "Binəqədi rayonunda 20 Yanvar faciəsinin otuz üçüncü ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

**2.** Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.

**3.** Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən, birinci müavin** **Leysan Məmmədov**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**"16" yanvar 2023-cü il tarixli**
**7 saylı Sərəncamı ilə təsdiq edilmişdir**

**20 Yanvar faciəsinin otuz üçüncü ildönümünün keçirilməsi ilə bağlı**

**TƏDBİRLƏR PLANI**

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | "20 yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfransın keçirilməsi | Rayon İcra Hakimiyyəti | S.Süleymanova<br>N.Allahverdiyev | 17 yanvar 2023 |
| 2. | Biləcəri qəsəbəsində yerləşən 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış "Güllə Yağışı" abidəsinin yerləşdiyi parkın ərazisində təmizlik və abadlıq işlərinin aparılması | Rayon İcra Hakimiyyəti, RİH başçısının Biləcəri QİƏD üzrə nümayəndəliyi, Biləcəri Bələdiyyəsi (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə<br>N.Məmmədov | 15-20 yanvar 2023 |
| 3. | 20 Yanvar faciəsində şəhid və əlil olmuş şəxslərin ailələrinin humanitar yardımla təmin edilməsi | Rayon İcra Hakimiyyəti, Bələdiyyələr (tövsiyə olunur), "20 Yanvar" Cəmiyyətinin rayon şöbəsi | S.Süleymanova<br>N.Allahverdiyev<br>M.İsmayılov | 18 yanvar 2023 |
| 4. | 20 Yanvar faciəsinin otuz üçüncü ildönümünə həsr olunmuş təhsil, məktəbəqədər və mədəniyyət müəssisələrində tədbirlərin keçirilməsi | Rayon İcra Hakimiyyəti, Təhsil müəssisələri, Məktəbəqədər təhsil müəssisələri, Mədəniyyət müəssisələri | S.Süleymanova<br>N.Allahverdiyev | yanvar 2023 |
| 6. | Biləcəri qəsəbəsində 20 Yanvar Şəhidlərinin xatirəsinə ucaldılmış "Güllə Yağışı" abidəsinə əklilqoyma mərasiminin keçirilməsi | Rayon İcra Hakimiyyəti | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə | 19 yanvar 2023 |

| | | | | |
|---|---|---|---|---|
| 7. | 20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı hüzn əlaməti olaraq rayonun ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağının endirilməsi | Rayon İcra Hakimiyyəti | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə | 20 yanvar 2023 |
| 8. | 12:00-da şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi | Rayon İcra Hakimiyyəti, Rayon Polis idarəsi (tövsiyə olunur) | S.Süleymanova<br>V.Eyvazova | 20 yanvar 2023 |
| 9. | Rayon ictimaiyyətinin 20 Yanvar faciəsi ilə əlaqədar Şəhidlər Xiyabanının ziyarət edilməsi | Rayon İcra Hakimiyyəti, İdarə, müəssisə və təşkilatlar | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə<br>A.Kərimov<br>S.Əliyev<br>V.Eyvazova<br>Z.Nəcəfova | 20 yanvar 2023 |
| 10. | 20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı keçirilən tədbirlərin kütləvi informasiya vasitələrində işıqlandırılmasının təmin edilməsi | Rayon İcra Hakimiyyəti | S.Süleymanova<br>N.Allahverdiyev | yanvar 2023 |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** — **Sevinc Süleymanova**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** — **Nicat Allahverdiyev**